# Multikulturalizm Forumunun iştirakçıları Şuşa və Xankəndidə




**Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) ICESCO ilə birgə təşkil etdiyi “Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi” mövzusuna həsr edilən II Beynəlxalq Multikulturalizm Gənclər Forumunun iştirakçıları Şuşa və Xankəndi şəhərlərində olublar.**

Forumun iştirakçıları Xankəndi şəhərinə gələrək, burada aparılan abadlıq-quruculuq işləri ilə tanış olublar. Daha sonra Forum iştirakçıları BBMM-in şöbə müdiri İrina Kuninanın “Azərbaycan Multikulturalizm modelinin xüsusiyyətləri” mövzusunda mühazirəsini dinləyiblər. O diqqətə çatdırıb ki, Azərbaycan multikulturalizminin siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasının bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapıb. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti Azərbaycanı çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı edib.

Forum çərçivəsində iştirakçılar Milli Məclisin üzvü, siyasi elmlər doktoru Rizvan Nəbiyevin “Bakının sülh diplomatiyası: beynəlxalq hüquqda qayıdış hüququ və Azərbaycan konteksti” mövzusunda mühazirəsini də dinləyiblər. Deputat çıxışında 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar, Prezident İlham Əliyevin sülh təşəbbüsləri, Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişinin əhəmiyyəti, həmçinin 2025-ci ildə Vaşinqtonda imzalanmış üçtərəfli bəyannamə barədə danışıb.

Mühazirəçi daha sonra uzun illər davam edən işğalın nəticələri – şəhər və kəndlərin dağıdılması, mina təhlükəsi, 700 minə yaxın məcburi köçkünün geri dönüş hüququ, habelə itkin düşmüş və taleyi naməlum olan 4 minə yaxın şəxsin faciəsi ilə bağlı faktları da qeyd edib. Eyni zamanda 1980-ci illərdə Ermənistandan qovulmuş 300 min azərbaycanlının qayıdış hüququnun təmin olunmasına toxunaraq bu hüququn beynəlxalq sənədlərlə tanındığını vurğulayıb.

Forum iştirakçıları “Müasir konfliktlər zamanı sülhün bərpasında dinin rolu" mövzusunda interaktiv müzakirə aparıblar.

Sonra iştirakçıların Şuşa şəhərinə ekskursiyası təşkil olunub. Qonaqlar Şuşa qalası, Yuxarı Gövhər Ağa məscidi və Vaqifin məqbərəsini, Cıdır düzünü gəziblər, restavrasiya və bərpa işləri ilə tanış olublar. Ekskursiya zamanı gənclərə Şuşanın Azərbaycanın musiqi və poeziya beşiyi olması, şəhərin çoxmillətli mədəniyyət mərkəzi kimi tarixi əhəmiyyəti, habelə işğaldan azad olunmasından sonra həyata keçirilən yenidənqurma layihələri barədə məlumat verilib.

Forum çərçivəsində “Öz xalqını təqdim et” musiqili axşamlar da təşkil olunub. Burada iştirakçılar öz xalqlarının mədəniyyəti, adət ənənələri ilə bağlı məlumat veriblər.

Xatırladaq ki, “Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi” mövzusuna həsr olunan II Beynəlxalq Multikulturalizm Gənclər Forumuna avqustun 22-də start verilib. Bakı, Şuşa və Xankəndi şəhərlərində keçirilən Foruma dünyanın 50-dən çox ölkəsindən 70-dək iştirakçı qatılıb.

***T. RÜSTƏMLİ***
***XQ***